**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ**

# R İ S A L Ə

## *Araşdırmalar toplusu*

## № 11

**Bakı – "Elm və Təhsil" – 2015**

***Azərbaycan Milli Elmlər Akademiyası***
***Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi***
***Elmi Şurasının 16 sentyabr 2015-ci il (protokol №7)***
***qərarı ilə nəşr edilir***

***Redaktor:*** AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru,
professor
**Rafael HÜSEYNOV**

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya elmləri doktoru, professor**
**Xatirə Bəşirli, filologiya elmləri doktoru**
**Şəfəq Əlibəyli, filologiya elmləri doktoru**
**Aida Qasımova, filologiya elmləri doktoru, professor**
**Nəzmiyyə Yigitoğlu, filologiya üzrə fəlsəfə doktoru**

**Risalə. Araşdırmalar toplusu. 11-ci cild**
**Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2015. – 232 səh.**

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi əməkdaşlarının elmi araşdırmalarından ibarət "Risalə" toplusu ildə bir dəfə nəşr edilir və məzmunu etibarilə klassik, müasir ədəbiyyat, fəlsəfə, mədəniyyət problemləri, həmçinin muzeyşünaslıq məsələlərini əhatə edir. Toplunun 11-ci cildi böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin 90 illiyi ilə əlaqədar muzeyin keçirdiyi respublika konfransının materialları əsasında tərtib edilmişdir. Konfransda əsas mövzu bilavasitə Bəxtiyar Vahabzadənin yaradıcılığı olsa da, müxtəlif bölmələrdə Azərbaycan ədəbiyyatının klassik və müasir dövrünə aid müxtəlif problemləri əhatə edən məruzələr də dinlənilmişdir. Redaksiya heyətinin təqdimatı və Elmi Şuranın qərarına əsasən Bəxtiyar Vahabzadəyə aid məqalələrin ən uğurluları seçilərək ayrıca bölmədə yerləşdirilmişdir. Toplunun ikinci hissəsində isə istər digər mövzular, istərsə də B.Vahabzadə yaradıcılığına aid tezislərin ən diqqətəlayiqləri dərc edilir.

Məqalələrin bir hissəsi ənənəvi olaraq muzey əməkdaşlarına məxsus olsa da, bu cildimizdə kənar elmi müəssisələrdən olan müəlliflərin də məqalələri yer almışdır.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi əməkdaşlarının, bir növ, məsul yaradıcılıq laboratoriyası olan "Risalə" mütəxəssislər, ali məktəb tələbələri, eləcə də Azərbaycan ədəbiyyatı və mədəniyyətinin problemləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. "Risalə" araşdırmalar toplusu Nizami muzeyinin ərsəyə gətirdiyi özünəməxsus tədqiqat topluları "Xəmsə"sinə daxil olan "Şərq" (Tərcümə toplusu), "Məclis" (Mərasimlər toplusu), "Xəzinə" (Kataloqlar toplusu), "Qaynaq" (Mənbələr toplusu) məcmuələr silsiləsindəndir və Ali Attestasiya Komissiyasının təsdiq etdiyi nəşrlər sırasında yer almaqdadır.

**© AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2015**

**Nuranə Firudin qızı ƏSƏDULLAYEVA**
**AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**

**Açar sözlər:** B.Vahabzadə, Azərbaycan poeziyası, ədəbiyyat
**Key words:** B.Vahabzadeh, Azerbaijan poetry, the literature
**Ключевые слова:** Б.Вагабзаде, азербайджанская поэзия, литература

# BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA ƏDƏBİYYAT VƏ SƏNƏT MƏSƏLƏLƏRİ

Ədəbiyyat tariximizdən böyük sənətkarların sənətlə, bədii yaradıcılıqla bağlı fikirlərini geniş oxucu kütləsinə çatdırmaq, ümumiyyətlə onları narahat edən bu məsələlərə münasibət bildirmək məqsədilə əsərlərində onlara yer verməsi və yaxud ayrıca əsər həsr etməsi faktları məlumdur. Nizami, Füzuli kimi klassiklərin bu ənənəsini sonradan ədəbiyyatımızın bu sahəsi ilə məşğul olan mütəxəssislər, yaradıcı insanlar davam etdirmişlər.

Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Bəxtiyar Vahabzadənin həm milli, həm də ümumbəşəri dəyərlərə əsaslanan yaradıcılığının əhatə etdiyi çoxsaylı mövzular içərisində ədəbiyyat və sənət məsələlərinə münasibət mövzusu da diqqəti cəlb edir.

Ziyalı, ictimai xadim B.Vahabzadə hər şeydən öncə bir şairdir. Səməd Vurğun məktəbindən ilhamlanan və qaynaqlanan şairin şeirlə bağlı düşüncələri maraq doğurur. Şairin qənaətincə, şeir elə yüksək bir mərtəbədir ki, o, yalnız gözəllik yaratmağa xidmət etmir, düşündürür və belə demək mümkünsə, əsl vətəndaş yetişdirir. "Mənim şeirim" adlı şeirində şair poetik düşüncələrindən, əzablı yaradıcılıq axtarışlarından yaranan misraları, sənət incilərini öz həqiqi səadəti adlandırır. Həyatın bütün hiss-həyəcanlarını, həm kədərini, həm də sevincini şeirdə tapan müəllif sənətin müqəddəs missiyasını məhz vətənə, xalqa xidmətdə görür:

**Sən atəş ol, sən od ol,**
**yandır da sən, yax da sən.**
**İldırım ol, çax da sən.**
**Göstər öz işığında bu dünyaya özünü,**
**Bir an yumma gözünü,**
**Həm gör sən, həm də göstər!** [2, 26]

Şair sənət yollarının mürəkkəbliyini şeirə yeni gələn həmkarlarına anlatmaqla bərabər, sözün keçmişdən bir miras olduğunu və bu mirasa hər zaman sahib çıxmalı olduqlarını da vacib sayır. Nəsillərin bir-birini əvəzləməsi, zövqlərin dəyişməsi ilə meydana çıxan problemlərin həllində şair yeniliyin müsbət tərəflərindən bəhrələnməklə bərabər, min illik keçmişinə arxalanır. Ənənə və müasirlik məsələsində də ustad, hər zaman olduğu kimi, ilk öncə vətəndaş mövqeyini ortaya qoyur. Onun fikrincə, hər ənənə ətalət olmadığı kimi, hər müasir görünən yol da inkişaf demək deyil. Milli ənənələrə, kökə bağlı olmayan sənətkar sənət yarada bilməz. Şairin qənaətlərinə görə, həqiqi

sənət hər cür naşılıqdan, sünilikdən, yad ünsürlərdən, təqliddən uzaq olmalı, ilham və istedadın qovuşuğundan yaranmalıdır:

**Qəlbinə, hissinə daim arxalan,**
**Bir də... əlvan səsli illərimizə.**
**Köhnə söz deməmiş ilham heç zaman**
**Hər qəlbin öz sözü təzədir bizə!** [2, 38]

Şair yeri gəldikcə şeirlərində bədii yaradıcılıq prosesinin özünəməxsuslu-ğundan da bəhs etmişdir. "Miz arxasında", "Fikir qanadlarım", Şairlər", "Elə bir fikir ki...", "Axtarışlarım" kimi şeirlərində şairin dərin müşahidələrini, söz, fikir axtarışlarını görmək mümkündür. Gözəlliyi məhz bu əbədi axtarışlarda gördüyünü etiraf edən şairin doğulan hər təzə misrası onun hiss-həyəcanlarından, duyğularından və ilhamından qaynaqlanmış, həyat qazanmışdır. Bəxtiyar Vahabzadə özü də etiraf edir ki, "mən qələmə aldığım mövzunu əvvəlcə duymuş, onunla yaşamış, bundan sonra onu yazıya köçürmüşəm" [4, 92]. "Hər cilvədə min sirr axtaran" şair ucsuz-bucaqsız xəyal aləmində dünyanın min bir tərəfinə səyahət edərək yalnız yurdunun deyil, bütün bəşəriyyətin vətəndaşı olaraq ətrafında baş verən hadisələrə heç zaman biganə qalmamış, şair və vətəndaş münasibətini bildirmişdir. Professor B.Əhmədovun da qeyd etdiyi kimi, şairin "obrazları da milli olmaqla yanaşı, bəşəriyyəti düşünür, dünyada gedən proseslərə narahatlığını ifadə edir. Bu, hər şeydən əvvəl, şairin özünün narahat təbiətindən irəli gəlir" [1, 493].

**Masa arxasmda öz ürəyimi**
**Məşələ döndərib yandırıram mən;**
**Dünyanın dərdləri mürəkkəb kimi**
**Axır qələmimdən, axır sübhəcən** [2, 44].

B.Vahabzadənin bədii yaradıcılıq prosesinin ayrılmaz parçası olan fikir axtarışları onun poeziyaya yüksək tələbkarlıqla yanaşdığının bariz nümunəsidir. Dinamik şəkildə davam edən bu axtarış prosesi həqiqi sənət meyarlarına bağlı olan şairin bədii-fəlsəfi düşüncələrinin həm forma, həm də məzmunca poetik təqdimatının uğurlu təminatçısıdır. Şairin nəzərincə, sənət adamının həm sonsuz həsrəti, həm də daimi səadəti onun əbədi fikir axtarışlarındadır.

Şairin düşüncə və söz münasibətlərinə baxışları da onun poetik qənaətlərinə nümunədir. Şair üçün müqəddəs olan söz hər zaman ədalətsizliklə, haqsızlıqla mübarizədədir və söz hər cür təzyiqlərdən qüvvətlidir, çünki o, həqiqətdən və azadlıqdan güc almışdır. Həyat həqiqətlərinin təsvirində həm hiss, həm də fikir sahibi olan sənətkarın fikrincə, söz fikri düzgün ifadə etməli, onun, bir növ, qəlibi olmalıdır:

**Düşüncələr – havadakı quşa bənzər.**
**Sözlər – quşa atdığımız daşa bənzər.**
**Dəyə bilsə, səninkidir,**
**Dəymədisə –**

**Daşdan küsmə,**
**Özündən küs.**
**O incidən əlini üz** [2, 94].

Varlığı və amalı ilə vətənə xidmət edən şairlər B.Vahabzadənin nəzərində həqiqət carçısı, haqq aşiqidirlər. Şairin fikrincə, bu məqamda "şeirlərə adi şeirlər kimi deyil, öz haqqı uğrunda ayağa qalxmış xalqın könül nəğmələri kimi baxırıq. Bax bu nöqtədə şair xalqla birləşir, onun düşünən beyninə, danışan dilinə çevrilir" [3, 181]. Şairliyi xoşbəxtlik hesab edənlərə ustad hər kədərdə bir sevinc, hər sevincdə isə bir kədər duyan şairlərin, əslində, vətən təəssübkeşi olduqlarını, hər cür əzablara qatlaşaraq bu mürəkkəb vəzifəni daşıdıqlarını diqqət önünə gətirir.

Təqiblərdən, sürgünlərdən, ölümlərdən keçsə də, şair ömrü cismani yoxluğundan sonra da davam edir, zamanın bütün dönəmlərində insan mənəviyyatını uca zirvələrə səsləyir:

**Şair – zəmanənin, əsrin vicdanı,**
**Şair – tarixlərin şərəfi, şanı,**
**Şair – bu dünyaya zamanın sözü,**
**Şair – həqiqətin, haqqın güzgüsü!** [2, 59]

"Şairləri öldürürlər" şeirində də B.Vahabzadə azadlığı əllərindən alınmış sənət adamlarının faciəsini ön plana çəkərək, bir şairin susdurulmasını onun ölümünə bərabər sayır. "Oxucu məktubu" şeirində B.Vahabzadə sənət və sənətkar olmadan yaşamağın mümkünsüzlüyünü belə açıqlayır:

**Şair – od qaynağı, şeir – gülədir.**
**Barıtsız şeirə şeir deyilməz.**
**Şairi olmayan bir xalq kütlədir,**
**Amalsız bir kütlə xalq ola bilməz** [2, 210].

Yaradıcılıq yolu və şəxsiyyəti ilə daima xalqına, vətəninə bağlı olan, "həyat yollarından hər zaman əqidəsi ilə keçən" ölməz Bəxtiyar Vahabzadə irsi bütün məsələlərdə olduğu kimi, ədəbiyyat və sənətə münasibət məsələlərində də daima milli təfəkkürün saflaşmasına və inkişafına xidmət göstərmişdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:


1. Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər. Bakı: "Elm və Təhsil", 2015, 552 s.
2. Vahabzadə B. Əsərləri. 2 cilddə. I cild (Şeirlər). Bakı: Öndər, 2004, 328s.
3. Vahabzadə B. Gəlin açıq danışaq… (məqalələr toplusu). Bakı: Azərbaycan, 1989, 220 s.
4. Vahabzadə B. Sadəlikdə böyüklük. Bakı: Yazıçı, 1978, 335 s.

***Nurana Firudin Asadullaeva***

**The questions of literature and art in the poetry of B.Vahabzadeh**
**S u m m a r y**

The creation of the outstanding representative of modern Azerbaijani poetry Bahtiar Vahabzadeh rich by the ideas of national independence and freedom, attracts attention by the attitude towards the questions of literature and art. The author researches the process of artistic creation of the poet, the questions of poetry, the poetical thoughts, tradition and modernity in poetry.

***Нурана Фирудин Асадуллаева***

**Вопросы литературы и искусства в поэзии Б.Вахабзаде**
**Р е з ю м е**

Творчество выдающегося представителя азербайджанской поэзии Бахтияра Вагабзаде, богатое идеями национальной независимости и свободы, привлекает внимание отношением к вопросам литературы и искусства. В статье исследуется процесс художественного творчества поэта, вопросы поэзии, поэтические раздумья, традиция и современность в поэзии.

# KİTABIN İÇİNDƏKİLƏR

Rafael HÜSEYNOV. Bəxtiyar Vahabzadənin arzuladığı bəxtiyar gələcək........4

## BÖLMƏLƏR:

BÖLMƏ 1: BƏXTİYAR VAHABZADƏ VƏ AZƏRBAYCAN ƏDƏBİYYATINDA VƏTƏNPƏRVƏRLİK MÖVZUSU

BÖLMƏ 2: BƏXTİYAR VAHABZADƏ VƏ AZƏRBAYCAN DRAMATURGİYASINDA TARİXİLİK

## MƏQALƏLƏR

Kamil ŞƏRİFOV. Süleyman əl-İsanın yaradıcılığının Azərbaycan poeziyası ilə uzlaşan məqamları ......................................................................31
Aynurə PAŞAYEVA. Bəxtiyar Vahabzadə publisistikasında milli özünüdərk..............................................................................................38
Bayram GÜNDOĞDU. Türk dünyasının şairi Bəxtiyar Vahabzadə............... 43
Dilarə ƏLİYEVA. Bəxtiyar Vahabzadə və Azərbaycan dramaturgiyasında tarixilik.......................................................................49
Sakibə ƏLƏSGƏROVA. Azadlıq və istiqlal şairləri: Bəxtiyar Vahabzadə və Sönməz ......................................................................53
Gülşən MEHDİZADƏ. İbtidai siniflərdə milli vətənpərvərlik hissinin aşılanması ..............................................................................................59
Yeganə HÜSEYNOVA. Bəxtiyar Vahabzadə poemalarında sosial mühitin təsviri ........................................................................... 64
Reyhan MƏCİDOVA. Poeziyamızın günəşi öz misralarında..........................70
Aida MİRZƏYEVA. Bəxtiyar Vahabzadənin poetik yaradıcılığında vətən sevgisinin tərənnümü ..........................................................................76
Natavan MUSTAFAYEVA. Bəxtiyar Vahabzadə yaradıcılığında türkçülük.. 81
Nəzmiyyə YİGİTOĞLU. Azərbaycan poeziyasındakı "altmışıncılar" nəslində dissident düşüncə – Bəxtiyar Vahabzadədən Vaqif Səmədoğluyadək .............86
Türkan QƏDİROVA. Bəxtiyar Vahabzadə poeziyasında ana dilinə münasibət ..............................................................................................92
Roza EYVAZOVA. Bəxtiyar Vahabzadə yaradıcılığına bir baxış ...................97
Tomiris BABANLI. Bəxtiyar Vahabzadə poeziyası ingilis tərcümələrində ..102
Тойраханум ГУСЕЙНОВА. Национальное и общечеловеческое в поэзии Бахтияра Вагабзаде ......................................................................109
Nuranə ƏSƏDULLAYEVA. Bəxtiyar Vahabzadə poeziyasında ədəbiyyat və sənət məsələləri .........................................................................113